İPƏK YOLU, No.2, 2018, səh.135-141

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SÜQUTU: SƏBƏBLƏR VƏ NƏTİCƏLƏR

**Sevda Hüseynova**

Bakı Dövlət Universi, Bakı, Azərbaycan

**Xülasə**. Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) süqutu məsələləri araşdırılır. Tarixi sənədlər və faktlar, eləcə də müasir hadisələr AXC-nin süqutunda Rusiyanın dağıdıcı və həlledici rolunu sübut edir. Məqalədə həmçinin AXC-nin süqutunun nəticələri analiz edilir.

**Açar sözlər**: Cümhuriyyət, parlament, mübarizə, təcavüz, Rusiya.

**FALL OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC: RESONS AND CONSEQUENCES**

**Sevda Huseynova**
*Baku State University,Baku, Azerbaijan*

**Abstract.** In the paper the questions on the fall of the Azerbaijan Democratic Republic (ADR) are studied. Historical documents and facts, as well as events of the present, prove the destructive and decisive role of Russia in the fall of ADR. The paper also analyzes the consequences of falling of ADR.
**Keywords:** ADR, parliament, fight, occupation, Russia.

**ПАДЕНИЕ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ: ПРИЧИНЫ И ПОСЛЕДСТВИЯ**

**Севда Гусейнова**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*

**Резюме**. В статье изучаются вопросы о падении Азербайджанской Демократической Республики (АДР). Историческое документы и факты, а также события современности, доказывают разрушительную и решающую роль России в падении АДР. В статье также анализируются последствия падения АДР.
**Ключевые слова**: АДР, парламент, борьба, оккупация, Россия.

Xalqımızın şərəfini və milli mövcudluğunu xilas etmiş iki ili 1918-1920-ci illəri tarixə həkk etmiş ilk respublikamız Azərbaycan milli dövlət quruculuğunun bərpası, xalqımızın milli mənlik şüurunun oyanması, istiqlaliyyətçilik ideyalarının təkamülündə əvəzsiz rol oynamışdır.

Belə böyük bir tarixi missiyanı yerinə yetirmiş olan Cümhuriyyətimizin cəmi 23 aydan sonra süqutu bu gün də çox böyük ağrı və təəssüf hissləri doğuraraq, bu iflasın səbəbləri haqqında yenidən və yenidən düşünməyə vadar edir. Azərbaycan tarixinin ən böhranlı dövrünə təsadüf edən bu iki ilin hadisələrini daxili proseslərlə yanaşı, ümumdünya hadisələri konteksində qiymətləndirmək baxımından, dövrün mürəkkəb beynəlxalq vəziyyətinimi önə çəkək? Qalib Antanta, erməni daşnakları və ya digər düşmən qüvvələrini günahlandıraq, yoxsa çox təhlükəli Rusiya amilindən yapışaq?

Ancaq tarixi sənədlərin və faktların, habelə dövrün əsas hadisələrinin dərindən araşdırılması tariximizin bu çox mürəkkəb və çətin dönəmində digər düşmən siyasi

qüvvələrdən daha artıq dağıdıcı və həlledici rolu Rusiyanın oynadığını sübut edir. Çox maraqlı bir haldır ki, bu dövrdə Rusiyada nə yeni yaranmış dövlət, nə də Rusiya imperiyasını bərpa etməyə çalışan qüvvələr, əsasən də Denikinçilər Azərbaycanın müstəqilliyini qəbul etmək istəməmişdir. Hər iki qüvvə Azərbaycanın müstəqilliyi, milli dövlətçiliyimiz üçün eyni dərəcədə təhlükəli idi. Deməli, Rusiya Azərbaycana olan iddialarından əl çəkməmiş, 1917-ci ilin noyabrında Sovet Rusiyası tərəfindən elan olunan Rusiya Xalqlarının Hüquq Bəyannaməsi, həmçinin  Rusiyanın və Şərqin müsəlman zəhmətkeşlərinə yönəldilmiş Bəyannamə kimi mühüm hüquqi sənədlər əslində Azərbaycana aid edilməmişdi. V.İ. Leninin imzaladığı bu sənədlər Rusiya imperiyasında yaşamış bütün xalqlara azad surətdə öz müqəddəratını təyin etmək hüququ vermişdi. Əslində isə Sovet Rusiyası vəd etdiyinin əksinə olaraq, kobud şəkildə Azərbaycanın daxili işlərinə müdaxilə etməyə başlamışdı.

1919-cu ilin payızında Denikin ordusunun Sovet Rusiyasının silahlı qüvvələri tərəfindən məğlub edilərək cənuba tərəf qovulması, habelə vətəndaş müharibəsində Sovet Ordusunun qələbələri Rusiyanın mövqeyini möhkəmləndirmiş oldu. Hərb meydanlarındakı qələbələr isə öz növbəsində qonşu dövlətlərə təzyiqi gücləndirir və bolşevizmin irəliyə doğru hərəkəti üçün əlverişli şərait yaradırdı. Azərbaycanın timsalında bu təzyiq 1920-ci ilin yanvarından aprelinədək diplomatik qarşıdurma səviyyəsinə qədər yüksələn notalar mübadiləsində öz əksini tapmışdır. Belə ki, beynəlxalq aləmdə özünü təsdiqləmək  üçün milli hökumətin ağır, üzücü və çətin mübarizəsi nəticəsində, 1920-ci il yanvarın 11-də Paris sülh konfransında Azərbaycan Xalq Cümhuriyyəti böyük dövlətlər tərəfindən de-fakto tanınmış oldu [2, s.285]. Bu, Əlimərdan bəy Topçubaşov başda olmaqla Azərbaycan diplomatiyasının böyük qələbəsi idi. Ancaq Azərbaycan Respublikasının müstəqilliyinin beynəlxalq aləmdə tanınmasına baxmayaraq, şimal sərhədlərində vəziyyət son dərəcə gərgin olaraq qalmaqda davam edirdi: Denikininin müdaxilə təhlükəsinin mövcudluğu, denikiçiləri darmadağın etdikdən sonra isə Sovet Rusiyasının cənubi Qafqazı işğal etmək təhlükəsinin artması və onun təhriki ilə daşnakların Qarabağda dövlətə qarşı qaldırdıqları qiyam 1920-ci ilin əvvəllərində Azərbaycan hökumətini çox ağır vəziyyətə salmış oldu. Həmin il yanvar ayının əvvəllərindən etibarən RSFSR Xarici İşlər Naziri G.V.Çiçerin Azərbaycan hökumətinə Denikinə qarşı onunla hərbi ittifaq bağlaması haqqında ardıcıl notalar göndərməyə başladı [1, s. 56].

Ermənistan Respublikasının Azərbaycan ərazilərinə qarşı təcavüz planlarını həyata keçirdiyi bir vaxtda, Sovet Rusiyasının çağırışı ilə Azərbaycanın denikinçilərə qarşı müharibəyə daxil olub, iki cəbhədə vuruşması qəti yolverilməz idi. RSFSR Xalq Xarici İşlər komissarı G.V.Çiçerin isə 1920-ci il 2 yanvar tarixli notasında Azərbaycan hökumətindən Denikinə qarşı müharibəyə girməyi tələb edirdi. Ancaq Azərbaycan hökuməti Sovet Rusiyasının Azərbaycanın müstəqilliyini tanımaqdan imtina etməsi ilə, onu Denikinlə mübarizəyə cəlb edərək zəiflətmək və müstəqilliyini məhv etmək məqsədini anlayaraq, bu təklifdən imtina etdi [7, s.56]. 14 yanvar tarixli cavab radioqrammasında  F. Xoyski bildirirdi: Azərbaycan xalqı böyük tarixi hadisələrin gedişində nəhəng itkilər və əziyyətlər bahasına

azadlıq və müstəqilliyə nail oldu, öz dövlət quruluşunu demokratik respublika əsasında qurdu... Azərbaycan Respublikası dönmədən o nöqteyi-nəzər üzərində durur ki, hər bir xalq öz taleyi və həyatını özünün istədiyi kimi müəyyən etmək hüququna malikdir. Təyini müqəddəratdan sonra Azərbaycan hökuməti heç vaxt başqalarına özünün daxili işlərinə qarışmaq imkanı vermədi və öz növbəsində başqa xalqların daxili işlərinə qarışmamaq prinsipini müdafiə edir.

Bu sarsılmaz prinsipdən çıxış edən Azərbaycan hökuməti öz daxili həyatının qurulması işində rus xalqının mübarizəsində müdaxiləni yolverilməz iş hesab edir.

...Azərbaycan hökuməti tərəfindən qəbul edilmiş yuxarıda qeyd edilən xarici siyasətin istiqaməti, ona Azərbaycan və digər xalqlar arasında mehriban münasibətlərin qurulmasını göstəriş verir, buna əsasən Azərbaycan Respublikası hökuməti danışıqlar yolu ilə hər iki dövlətin müstəqilliyi prinsiplərindən irəli gələn rus və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətləri yaratmağa hazırdır [3, s.70].

Bunu da qeyd etmək yerinə düşər ki, F. Xoyski tərəfindən göndərilən belə diplomatik, ehtiyatlı və qəti cavab Azərbaycan diplomatiyasının tam formalaşdığını və qəti mövqeyə malik olduğunu sübut edən bariz nümunədir. Lakin Azərbaycan hökumətinin bu cavabı və mövqeyi bolşevik Rusiyasının işğalçı planlarına uyğun gəlmirdi və bolşevik dövləti öz təzyiqini artırmağa başladı. Belə ki, RK(B) P MK-nin 17-18 yanvar tarixli iclasında V.İ.Leninin təklif etdiyi qətnamə Azərbaycan milli hökumətinə qarşı gələcək münasibətin əsas konturlarını bəyan etmiş oldu: ” Xalq Xarici İşlər Komissarlığına tapşırılsın ki, Azərbaycan hökuməti barəsində çox böyük təmkinlik və etimadsızlıq siyasəti yeritsin... Xalq Xarici İşlər Komissarlığı Azərbaycan hökumətinin bu cür davranışına qarşı qəti protest etməlidir” [3, s.71].

1920-ci il yanvarın 23-də G.V.Çiçerin tərəfindən Azərbaycan hökumətinə ikinci nota verildi. V.İ.Leninin göstərişi əsasında bu nota daha aqressiv xarakter daşıyır və Azərbaycan Respublikasının müstəqilliyinə əhəmiyyət verilməyərək, Azərbaycan hökumətini Denikinlə əməkdaşlıqda ittiham edilirdi. Azərbaycan hökumətinin Rusiyanın daxili işlərinə qarışmamaq siyasəti Denikinlə mübarizədən imtina kimi qiymətləndirilirdi. Əslində, Denikinə qarşı mübarizədən imtina etməyi bəhanə edən bolşevik Rusiyası Azərbaycana təzyiqi gücləndirməyə başladı və milli hökumətə qarşı təbliğata başlamış oldu. 1920-ci il fevralın 20-də G.V.Çiçerin öz hökuməti adından üçüncü nota göndərdi. Öz məzmununa görə bu nota da əvvəlkilərdən o qədər də fərqlənmirdi [1, s.32]. Aydındır ki, bütün bu diplomatik oyunbazlıqların arxasında Bakı neftinə sahib olmaq niyyəti dayanırdı.

Qızıl Ordunun ciddi hərbi uğurları, Denikin üzərindəki qələbəsi və cənuba doğru sürətlə irəliləməsi Azərbaycan hökuməti daxilində də bəzi fikir ayrılıqlarına səbəb olmuş oldu. Belə ki, Daxili İşlər M.H.Hacınski başda olmaqla bir qrup belə hesab edirdi ki, Sovet Rusiyasına geniş güzəştlər verməklə Azərbaycanın istiqlaliyyətini tanıtdırmaq mümkün olacaqdır. Lakin F. Xoyski və onun həmfikirləri onun təslimçi mövqeyinə qarşı çıxaraq, çıxış yolunu ölkədə güclü rejim yaratmaq və təcavüzə qarşı əldə silahlı müqavimətdə görürdü. Bu

məqsədlə o, öz tərəfdarlarını toplayaraq, çıxış yolunun konkret proqramını təklif etdi. Bu proqrama görə, M.H.Hacınski tutduğu vəzifədən azad edilməli, yerinə kommunizmlə mübarizəyə hazır olan adam təyin edilməli, parlament buraxılmalı və müdafiə məqsədilə hökumətə fövqəladə hüquqlar verilməli və Azərbaycan Müəssislər məclisinə yaxın altı ayda seçkilər keçirilməli idi [7, s.59].

F. Xoyski qrupunun bu fəaliyyəti müvəqqəti uğurla nəticələndi və M.H.Hacınski Daxili İşlər Naziri vəzifəsindən götürülmüş oldu. Lakin o, hökumətin tərkibində ticarət və sənaye naziri kimi qala bildi və cavab zərbəsi vurmaq üçün əlverişli məqam gözləməyə başladı. Bu məqam özünü çox gözlətməyərək Qarabağda daşnak qiyamı zamanı fürsət tapmış oldu. Başda M.H.Hacınski olmaqla rus meyilli qrup N.Yusifbəylinin hökumətinin istefaya getməsinə və M.H.Hacınskinin rəhbərliyi ilə yeni hökumət kabinəsi yaratmaq qərarının qəbul edilməsinə nail oldular. M.H.Hacınski həmin an bolşeviklərlə danışığa girərək onlara öz yeni hökumətində nazir postları təklif etmişdi. Ancaq onlar bundan imtina etdilər. Məhz M.H.Hacınski tərəfindən yeni hökumətin yaradılmasında göstərilən lənglik və gecikmə (o, yalnız aprelin 22-də hökuməti təşkil etməkdən imtina etmişdi) Azərbaycanda mövcud ağır siyasi vəziyyəti daha da gərginləşdirərək çox təəssüflər olsun ki, müxtəlif parlament partiyaları arasındakı siyasi mübarizəni son həddə qədər kəskinləşdirmiş oldu. Bu baxımdan "İttihad" partiyasının da bu dövrdəki satqın mövqeyini qeyd etməmək olmaz. Milli hökumətə qarşı daimi müxalifətdə olan bu partiya inadlı şəkildə Sovet Rusiyası ilə hərbi ittifaq bağlanması ideyasını təbliğ etmiş, kommunistlərlə birgə dövlət çevrilişi edərək, müsavat hakimiyyətini təklif etmişdilər [7, s.60].

Daxili siyasi qüvvələrin belə kəskin toqquşduqları bu gərgin anlarda isə bolşevik Qızıl Ordusu artıq Azərbaycanın sərhədlərinə yaxınlaşmaq üzrə idi. Bundan əlavə, 1920-ci ilin fevralında yaradılmış Azərbaycan K(b)P mövcud vəziyyətdən dövlət çevrilişi etmək üçün əlverişli məqam kimi istifadə etməyə cəhd göstərirdi. Sovet Rusiyasının Xarici İşlər Komissarlığı fevral ayında Azərbaycanın istiqlaliyyətini tanımaq məsələsini müzakirə etdikdə Bakıda və Rusiyada fəaliyyət göstərən müsəlman bolşeviklərin və Azərbaycan KP MK-nın təklifini nəzərə alaraq, müstəqil Azərbaycan respublikasını tanımaqdan qəti surətdə imtina etmişdi.

1920-ci ilin əvvəllərində Bakı bolşevikləri Rusiyadan göstəriş və dəstək alaraq, Azərbaycan Xalq Cümhuriyyətini devirmək üçün fəal işə başladılar. Yanvarın ortalarında RK(b) P Bakı Komitəsi yanında milli hökuməti devirmək üçün silahlı üsyan təşkil etmək məqsədilə aprel işğalında fəal rol oynamış bolşevik Əliheydər Qarayevin rəhbərliyi ilə "operativ qərargah" yaradıldı. Onun milli hökuməti üsyanla devirmək, parlamenti dağıtmaq və Şura hökuməti elan etmək barədəki ümumi planı imzalaması Azərbaycan parlamenti iclasında kəskin etirazla qarşılanmış və o xain adı ilə damğalanmışdı [2, s.35].

Müstəqil Azərbaycan dövlətinin müqəddəratının həll olunduğu bu ağır dönəmdə türk amilinin rolunu da nəzərdən qaçırmaq olmaz. Belə ki, Türkiyənin o dövrkü ağır vəziyyəti ona

ölüm hökmü çıxaran imperialist dövlətlərin ona qarşı vahid cəbhədə birləşməsi kimi çox təhlükəli bir vəziyyətdən irəli gələn güclü təzyiq altında türk kommunistləri yerli bolşeviklərlə əlaqəyə girib, Azərbaycan Respublikası isə Sovet Rusiyasının ittifaqını güclü şəkildə təbliğ edirdilər. Belə ki, bu dövrdə Türkiyənin bir dövlət kimi varlığı böyük təhlükə qarşısında idi. Belə çıxılmaz bir vəziyyətdə olan Türkiyə Sovet Rusiyasının yardım haqqında təklifini qəbul etmiş oldu. Sovet Rusiyasının göstərdiyi hərbi yardım və diplomatik dəstəyin müqabilində isə Türkiyə bütün Qafqazı, o cümlədən Azərbaycanı Rusiyanın nüfuz dairəsi kimi tanımalı idi. Beləliklə, məqsədinə nail olan və Türkiyəni neytrallaşdıran Sovet Rusiyası Azərbaycan üzərinə təcavüz üçün yollarını tam açmış oldu [7, s.60].

Getdikcə iqtisadi vəziyyəti ağırlaşan və bütün gücü ilə Bakı neftinə can atan Sovet Rusiyası hücum taktikasına keçmiş oldu. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətindən Denikin əleyhinə saziş bağlamaq təkliflərinə rədd cavabı gəlməsini bəhanə edərək, V.İ.Lenin 1920-ci il martın 17-də Qafqaz cəbhəsinin hərbi inqilab şurası üzvləri İ.T. Smilqa və Q.K.Orjonokidzeyə teleqram göndərərək açıq şəkildə bildirirdi: “Bakını almaq bizə olduqca zəruridir. Bütün səyinizi buna verin” [4, s.69].

Belə kritik şəraitdə milli dövləti boğmaq üçün istifadə olunan daha bir faktor da xəyanətkar erməni-daşnaq siyasəti olmuşdu. Belə ki, Azərbaycana təcavüz ərəfəsində Sovet hökuməti öz fəaliyyətini Ermənistanın daşnaq rəhbərliyi ilə dəqiq şəkildə uzlaşdıra bildi. Məhz Moskvanın sifarişi və xeyir-duası ilə 1920-ci il martın 22-də daşnaq qüvvələri Azərbaycan hərbi qüvvələrinin Xankəndi qarnizonuna hücüm etdilər [7, s.60]. Bu hadisə isə bütün Dağlıq Qarabağın ərazisində daşnaq qiyamının başlanğıcı rolunu oynadı. Bu qiyamın əsas məqsədi Azərbaycan dövlətinin Rusiyanın hücumu ərəfəsində öz hərbi qüvvələrini şimal sərhədlərindən çıxarmaq məcburiyyəti qarşısında qoymaq idi. Bu elə belə də oldu, hökumət qiyamın qarşısını almaq üçün hərbi qüvvələrinin təxmini olaraq hamısını Qarabağa göndərdi və ölkənin şimal sərhədləri demək olar ki, boş qalmış oldu. XI Qırmızı Ordunun şimaldan Bakıya daxil olması üçün şərait təmin edilmiş oldu. Çox təəssüflər olsun ki, Bakı şimaldan gələn çox güclü təhlükə qarşısında tam müdafəsiz qaldı. Bu üsyana rəvac verməkdə Sovet Rusiyasının digər məqsədi o idi ki, Azərbaycan hökuməti qiyamı yatırtmaq və daxili sakitliyi qorumaq üçün Rusiyadan hərbi kömək istəmək məcburiyyəti qarşısında qalsın. Bunu azərbaycanlı bolşeviklərin lideri Ə.Qarayevin parlamentin 1 aprel tarixli iclasındakı çıxışından da görmək olar: “Qızıl ordu artıq Yalama stansiyası yaxınlığındadır, bizcə, elə indi onu bura köməyə çağırmaq lazımdır və sizə hakimiyyəti boşeviklərə təhvil vermək lazımdır. Bu millətlərarası məsələni həll etməyə qadir olan yeganə hakimiyyətdir” [2, s.135]. Onun bu fikri qonaq kimi iclasda iştirak edən türk nümayəndələri tərəfindən də razılıqla qaşılanmışdır.

Bu hadisələrin gedişində XI Qırmızı Ordunun hissələri aprelin ortalarına doğru Denikin qüvvələrinin qalıqlarını da əzərək, Azərbaycan dövlətinin şimal sərhədlərinə çatmış oldular. Bununla əlaqədar F.Xoyski aprelin 15-də G.V.Çiçerinə sonuncu nota ilə müraciət etdi. Burada, külli miqdarda Qızıl Ordu hissələrinin Azərbaycan Respublikasının sərhəddində,

Dərbənd rayonunda cəmləşməsinin səbəbləri soruşulur, Sovet hökumətindən hərbi qüvvələrin bu konsentrasiyasının səbəb və məqsədinin izahı istənilirdi [4, s.70].

Lakin bu nota da əvvəlki notalar kimi cavabsız qaldı. Bu isə ona əsaslanırdı ki,artıq Azərbaycana ediləcək hərbi müdaxiləyə hazırlıq özünün son mərhələsinə daxil olmuşdu. Azərbaycanın taleyi artıq Moskvada həll olunmuşdu. Q.K.Orconokidzenin bu günlərə aid əlyazmasında göstərilir ki, Bakıya hücum əməliyyatı artıq hazırlanmışdı və Levandovskinin başçılığı ilə aprelin 25-26-da biz Azərbaycan sərhəddini aşdıq [3, s.94]. Azərbaycanın hərbi qüvvələri isə əsasən Qərb cəbhəsində olduğu üçün XI Qırmızı Orduya əsaslı müqavimət göstərmək mümkün olmadı. S.Mehmandarovun aprelin 27-də ordunun yerləşdiyi qərb cəbhəsinə hərbi kömək göndərilməsi haqqında vurduğu hərbi kömək göndərilməsi haqqında təcili teleqramın da heç bir əhəmiyyəti olmadı. Beləliklə, 1920-ci il aprelin 27-nə keçən gecə XI Qırmızı Ordu hissələri heç bir xəbərdarlıq etmədən və beynəlxalq hüquq normalarını pozaraq, Azərbaycan milli hökumətini devirmək məqsədilə sərhəddi keçərək, birbaşa Bakıya doğru irəliləməyə başladılar. Elə həmin gün, aprelin 27-si gündüz saat 4-də Azərbaycan bolşevikləri RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və fəhlə konfransı adından respublika Parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum təqdim etdi [7, s.2]. Azərbaycan bolşeviklərinin görkəmli nümayəndəsi, Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsində və bolşeviklərin hakimiyyətə gəlməsində mühüm rol oynamış Çingiz İldırım Bakı yunkerlər məktəbini, polis idarəsini, Bayılda hərbi silah anbarını ələ keçirmiş, onun əmri ilə hərbi donanmanın gəmiləri toplarını Cümhuriyyət Hökumətinin və Parlamentin yerləşdiyi binalara tuşlamışdı [2, s.39].

Əhali arasında qırğın və qan tökülməsinə yol verməmək məqsədilə uzun müzakirələrdən sonra Azərbaycan parlamenti aprelin 27-si axşam saat 11-də hakimiyyətin dinc yolla bolşeviklərə təhvil verilməsi haqqında o məşum qərarı qəbul etmiş oldu [4, s.97]. Hakimiyyət təhvil verilərkən bolşeviklərlə razılaşdırılmış 6 əsas şərtdən birinin Qırmızı Ordunun Bakıya buraxılmaması şərti olsa da bu razılaşmanın əksinə olaraq, Anadoluya getmək bəhanəsi ilə Biləcəri stansiyası yaxınlığına gəlib çatmış XI Qırmızı Ordu aprel ayının 28-də Bakıya daxil olaraq onu tutmuş oldu. 1920-ci ilin yanvarında artıq dünya dövlətləri tərəfindən tanınmış və beynəlxalq münasibətlərin subyektinə çevrilmiş suveren bir dövlət, aldadılma yolu ilə Sovet Rusiyası tərəfindən işğal olundu [8, s.7]. Bununla da Azərbaycanın tarixində mühüm hadisə olan 23 aylıq istiqlal dövrünə son qoyuldu və çox təəssüflər olsun ki, Azərbaycan yenidən xammal mənbəyi kimi Rusiyanın tərkibinə qatılmış oldu.

**Ədəbiyyat**

1. Azərbaycan Demokratik Respublikası, Azərbaycan hökuməti, Bakı, 1990.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, Bakı, 2005.
3. Həsənli C., (1991), Ağ ləkələrin qara kölgəsi, Bakı, 1991.

4. Nəcəfov B., (1992), Azərbaycan Demokratik Respublikası (Daxili və xarici siyasəti), Bakı.
5. Paşayev A., (2001), Azərbaycan Xalq Cümhuriyyətinin parlament təcrübəsindən. Müstəqil dövlətimiz və parlamentimiz, Bakı.
6. Rəsulzadə M.Ə., (1990), Azərbaycan Cümhuriyyəti, Bakı.
7. Валаев А., (1990), Азербайджанское национально-демократическое движение 1917-1920 г., Баку.
8. Гасанлы Дж., (2013), Внешняя политика Азербайджана в годы советской власти (1920-1939), Москва.